# QƏLBİM SAHİLSİZ DƏNİZDİR



*VADİL ÜMİD*

*Vadil Ümid oğlu Mahmudov 1948-ci ildə Ucar rayonunun Qulabənd kəndində anadan olub. Orta təhsilini doğma kəndində alıb. 1974-cü ildə K.M.Kirov adına Bakı Dövlət Universitetinin (indiki BDU-nun) filologiya fakültəsini bitirmişdir. Bu kitablar isə şair Vadil Ümid qələminin məhsullarıdır.*

*1. "Özüm və sözüm", Bakı-1996.*
*2. "Bu kənd bizim kəndimizdir", "Şərq-Qərb" nəşriyyatı, Bakı-1998.*
*3. "Yaxşılıq etməyə tələs", "Cteyk" KM-nin mətbəəsi. H.Cavid prospekti 29. Bakı-2003.*
*4. "Şairdən gözləyir haqq sözü bu xalq", "Səda" nəşriyyatı, Bakı-2007.*
*5. "Unudulmayan Umud" (xatirələr və şeirlər), Bakı-2015.*
*6. "Kövrək könül göynərtiləri", "Elm və təhsil" nəşriyyatı, Bakı-2023.*

### YAZI MASASI

Mənim nələr çəkdiyimi
Heç kəs bilməz, sən bilərsən
Oğrun-oğrun, açıq-aşkar
Göz yaşımı sən silərsən.

Yazı masam, yazım səndən
Bir gülüb bir ağlamışıq
Belimizi qəm əyəndə,
Tanrıya bel bağlamışıq.

Çəkib məni aparan var,
Fikir, xəyal dünyasına.
Çatmamışam bir bəxtsizin,
Nə toyuna, nə yasına.

Qoşulub sevindin ay yazı masam,
Elə ki, şerimi bitirə bildim.
Sən taxta parçası... Həmdərdsən mənə
Adam var nə yaxşı itirə bildim.

Kimdir kimin dərdin bilən?
Yoldaş sənsən, qardaş sənsən.
Şerim üzə çıxanacan,
İlk oxucum, sirdaş sənsən.

Vadil Ümid fikirlidir,
Çox yüklənib yazı masam.
Bəzən susdum, sən danışdın,
Gərək sənə qulaq asam.
Ey həmdərdim, yazı masam.

*2025*

### DÜNYA ŞİRİN

Ölkə gəzdik en-uzuna,
Dözdük isti, qar-buzuna.
Baxmısanmı dad-duzuna?
Deyirik ki, dünya şirin.

Deyib güldük şirin-şirin,
Düşünmədik dərin-dərin.
Pivə içdik sərin-sərin,
Deyirik ki, dünya şirin.

Körpə kimi bəsləmədi,
Xoş günlərə səsləmədi.
Əcəl çatdı, gözləmədi,
Deyirik ki, dünya şirin.

Dünya bizi çox aldadıb,
Şor da verib, bal daddırıb.
Az güldürüb, çox ağladıb,
Deyirik ki, dünya şirin.

Ata, analar aparır,
Şəhid balalar aparır,
Nazlı sonalar aparır,
Vadil deyir dünya şirin.

2025

### ELM FƏDAİSİ

*(Həm də şair, nasir, tədqiqadçı Nizami Məmmdəov Tağısoyun 75 illik yubileyi münasibəti ilə)*

Şilyan özü böyük kənddi,
Dostun oldu kitab-qələm.
Böyük oğul doğulmayır
Bax bu kənddə hələm-hələm.

Sən Şilyanı ucaltmısan,
Günahlara daş atmısan.
Sən Şirvanda bu Şilyanı
Ad-sanınla yaşatmısan.

Sən elmlə ucaltmısan,
Ömrü hədər ötürmədin.
Qatlaşmısan hər əzaba,
Sən ki minnət götürmədin.

Gördün yolun çətinliyin,
Söhbət açım mətinlikdən.
Qorxun yoxdur zərrə qədər
Bu yoldakı çətinlikdən.

Sahilsiz dənizdir kitab,
Onda biliklər ümmandır.
Ömrün elmə həsr edənlər,
Sanma pul-para umandır.

Şair, alim, publisistsən,
Sən nüfuzlu ziyalısan,
"Qızıl qələm" sahibisən,
Mükafatlı, medallısan.

Yazdıqların o əsərlər,
Bir beyinin məhsuludur.
Hələ yazıb yaradırsan,
Göz dəyməsin, can suludur.

75 yaş nədir hələ?
Qoy Allahım versin ömür.
Vadil Ümid, ürək dolu.
Çox söz bilir, yazmır, demir.

*May, 2025-ci il.*

### DURUM GEDİM ANAMGİLƏ

Onsuz həyat üzə gülmür,
Çağırıram haya gəlmir.
Atam getdi, o da gəlmir.
Bəs bu könlüm necə gülə?
Durum gedim anamgilə.

Ruhun sanki yaddı burda.
Xatirələr qalıb orda.
Cismim hey can atır yurda,
Kövrək könlüm gəlib dilə
Durum gedim anamgilə.

Gültək solub açılan var.
Arzular var, acılar var.
Qardaşlar var, bacılar var,
Nədən uzaq düşdük belə?
Durum gedim anamgilə.

Evdə bir yaraşıq vardı,
Lampa, fanar, işıq vardı,
Yeddiyəcən uşaq vardı,
Göz yaşlarım gilə-gilə,
Durum gedim anamgilə.

Kipriyi ilə od götürüb,
Təndirdən çörək gətirib
Bizi məktəbə ötürüb.
Üzü gözü gülə-gülə
Durum gedim anamgilə.

Həyət heyva, armud, nardı,
Yollarıma boylanardı.
Toy olardı, vay olardı
Göz yaşımı silə-silə
Durum gedim anamgilə.

Əlac yoxmuş azarına
Başı qoydum məzarına,
Tanrı, söz de yazarına
Yanıb-yanıb dönnəm külə
Durum gedim anamgilə.

Burda ana ətri qalıb,
Hörmət, izzət xərti qalıb.
Şah şerimin sətri qalıb,
Onu tap ver sən Vadilə,
Durum gedim anamgilə.

### BELƏSİNƏ MÜƏLLİM DE

Gəlişiylə dan sökülür
Günəş doğur, çən çəkilir
Üz-gözündən nur tökülür,
Beləsinə müəllim de.

Uşaqlara balam desə,
Canım deyib əzizləsə.
Dərin, möhkəm bilik versə,
Beləsinə müəllim de.

Bağbandır, var bitirməsi,
Şərəfli ad gətirməsi,
Çoxaldıqca yetirməsi,
Beləsinə müəllim de.

Söyləyirsə sözün düzün,
Danışmırsa bir az uzun.
Qoruya bilsə nüfuzun,
Beləsinə müəllim de.

Müəllimlik qanda olur,
Sanma o hər canda olur.
Belə ömür şamda olur...
Beləsinə müəllim de.

Etikası, məntiqi var,
Səlis, aydın bir nitqi var.
Aləmə eyləyirəm car,
Beləsinə müəllim de.

Vadil, sən bax fəsillərə,
O bahardır - bil bizərə
Örnək olsa nəsillərə,
Beləsinə müəllim de.

### TƏR

Bağ salanda, gül əkəndə,
tərləmişəm.
Bir imtahan otağında
Qazandığım biliklərin
Haqq-hesabı çəkiləndə
tərləmişəm.
Damcı-damcı, gilə-gilə
Tər axıtdım səhər, axşam
Soyuq xəcalət tərini,
Yaxınıma qoymamışam.
Yaxınıma qoymamışam.

### MƏN VƏ TORPAQ

Mən torpağa çox tər tökdüm
Bu tər deyil! -
Əməyimin göz yaşıdır.
Mən torpağa toxum səpdim
Toxum deyil! -
təbiətin daş-qaşıdır.
Ağac əkdim,
Bir az keçmiş -
gördüm hər yan yamyaşıldır.
Zəhmətimlə mən torpaqdan
nə istədim, o da verdi.
Əvəzində torpaq məndən
Qayğı, səxavət istədi.

### NEKROLOQ

Həyatın mikrogüzgüsü,
Böyük bir romanda
Sonuncu varaq,
Son səs, son soraq
Göz önünə gəlir,
Vətən, el, oba.
Göz önünə gəlir.
Dağ, dərə, aul.
Göz önünə gəlir,
Fəxri xiyaban,
Fəxri qaraul.
... Coşqun çayların qurulaşması,
Torpağın insanla qucaqlaşması.
Həyatın bir anlıq ucuzlaşması...
Dostun, əzizlərin axan göz yaşı,
Böyük xidmətlərin kiçik baş daşı.

### ƏCƏLİ ÇATAN AĞAC

Nə gözəl çətirlisən,
Əcəli çatan ağac.
Dərdlisən, kədərlisən,
Əcəli çatan ağac.

Şəhər, kənddə əkərdik,
Əziyyətin çəkərdik,
Kölgəndə dincələrdik,
Əcəli çatan ağac.

Ağac kökün, soyundu...
Kədərlə qol boyundu.
Yasın, yoxsa toyundu?
Əcəli çatan ağac.

Çatılıbdır qaşların,
Qırdıq quru, yaşların.
Perikdilər quşların
Əcəli çatan ağac.

İstəməzdim ölümünü,
Çıxmadı səsi, ünü,
Bağışladı ömrünü,
Əcəli çatan ağac.

Küsür küskün torpağın,
Düşür ömür yarpağın.
Kəsilir qol-budağın
Əcəli çatan ağac.

Kəsdik... Yerin çayxana.
Tikdik qaraj, barxana.
Biz batarıq al-qana,
Əcəli çatan ağac.

Vadil, denən qısasın,
Deyirəm qulaq asın.
Bir gün alar qisasın,
Əcəli çatan ağac.

***(Davamı 15-ci səhifədə)***

# QƏLBİM SAHİLSİZ DƏNİZDİR

*(Əvvəli 14-cü səhifədə)*

**QOYMA, BİZİ İT YEYƏCƏK**

Fikir çəkib dayanmıram,
Yastığa baş qoyanmıram.
Gec yatanda oyanmıram
İtlər hürə-hürə gəlir,
Qoyma, yürə-yürə gəlir.

Bu itlərin sahibi yox,
Hürür, gecə-sabahı yox.
Öldürənin günahı yox
Dərdimizi kim deyəcək?
Qoyma, bizi it yeyəcək.

Yuxudan hövlanak durdum,
Dincəlmədim, başı yordum.
Hirslədim yastığı vurdum.
İt yuxuda küt yeyəcək,
Qoyma, bizi it yeyəcək.

Həsrət qaldıq gülməyə biz.
Öyrəşmədik dinməyə biz.
Növbə tutduq ölməyə biz,
Yaxamızda bit gəzəcək,
Qoyma, bizi it yeyəcək.

Ağız-ağıza verirlər,
Gecə-gündüz hey hürürlər,
Hey eşidib, çox görürlər...
Kimsə söyüb, hey döyəcək,
Cəriməni kim verəcək?

Xəstəlik var, quduzluqdu,
Elə bilmə ucuzluqdu.
Yediyimiz sup, suluxdu
Kimsə özünü öyəcək,
Qoyma, bizi it yeyəcək.

Bir qara it tapdı məni,
Sanki tapdı o düşməni.
Çox cəld cumub qapdı məni,
Son sözü həkim deyəcək
Bilmirəm hər kim deyəcək.

Qılcam itə "siftə" imiş,
Bu bud əti müftə imiş.
Anam namaz üstə imiş,
İtil burdan, get! - deyəcək.
Bizi hələ çox yeyəcək?...

İtlər at oynadır indi,
Yuxu deyil, bunlar çindi.
Sahibsiz it yüzdü, mindi.
İt süd içib ət yeyəcək,
Qoyma, bizi it yeyəcək.

İtlər hürür, karvan keçir,
İtlər özü sarvan seçir.
Yeyən yeyir, içən içir.
...Qəzəbdən bir don geyəcək,
Qoyma, bizi it yeyəcək.

Gözlərimdən qaçıb yuxu,
Qızıl bilib susub çoxu.
Sən Vadilin şeirin oxu.
Elin dərdin deyəcək,
Qoyma, bizi it yeyəcək.

**BAHALAŞMA, UCUZLAŞMA**

Gəlib hansı dövrə çatdıq, a qardaş,
Namusla yaşayan pulsuzlaşıbdır.
Bu şorun qiyməti bahalaşandan,
"Sən öl"ün qiyməti ucuzlaşıbdır.

**DÜŞÜN BİR AZ**

Gözüm düşüb işıqdan,
Vururam çoxdan eynək.
Bunu çox dərd eləmə,
Belədir, belə neynək.

Gözə eynək taxmağım
Hələ qocalıq deyil.
Vaxtsız ağaran saç da
Hələ ucalıq deyil.

**İSLAHAT**

İslahat nə qədər olarmış, Allah!
Torpaqdan başladıq bu islahatı.
Səhiyyə islahatı... təhsil islahatı...
Keçirək insanlıq... biz islahatı.

**KİŞİ VAR**

Kişi var bir tikə haram dadmayıb,
Kişi var çörəyi pusmaqdan çıxır.
Torpağa tər tökür əkinci qardaş.
Kişi var çörəyi susmaqdan çıxır.

Kişi var durammır sözünün üstə,
Kişi var verəcək gözünü istə.
Kişi var axtarır dodağı püstə
Kişi var azğındır, "cızıq"dan çıxır.

**UTANMAZA**

Qoltuq altda az yaşa gəl!
Gəl çıx özgə kölgəsindən.
Öz-özündən utanmayan,
Utanarmı özgəsindən.